

Dünyada hər yüz nəfərin 80-i insulinə ehtiyac olmayan diabetdən əziyyət çəkir. Bu növ diabet adətən simptomsuz keçdiyindən, çox vaxt insanlar xəstə olduqlarını belə bilmirlər".
Bu sözləri Səhiyyə Nazirliyinin baş endokrinoloqu, ATU-nun tərbiyə işləri üzrə prorektoru, professor Rafiq Məmmədhəsənov deyib.
Professor bildirir ki, diabet əsasən iki tipə bölünür: "Birinci tip 40 yaşına qədər insanlarda əmələ gəlir. Bu zaman bədən qətiyyən insulin hasil etmir. Belə insanların bədəninə mütəmadi olaraq insulin yeridilməlidir. İkinci növ - 40 yaşdan yuxarı şəxslərdə əmələ gələn "yaşlıların diabeti" adlandırılır. Bu xəstələrin müalicəsi üçün əksər hallarda insulin tələb olunmur. Xəstəliyin ağırlaşmış halında insulindən istifadə olunur ki, buna da nadir hallarda rast gəlinir. Belə xəstələrdə həblər və pəhrizlə ümumi vəziyyəti stabil saxlamaq olur".
Rafiq Məmmədhəsənov qeyd edir ki, əksər hallarda artıq çəki insulin çatışmazlığı ilə nəticələnir: "Piylənmə ilə yanaşı, karbohidratla zəngin qidalar, hipodinamiya (hərəkət çatışmazlığı, oturaq həyat tərzi), xroniki stress, genetik faktorlar şəkərli diabetin yaranmasının əsas səbəbləridir.

Birinci tip diabet zamanı rast gəlinən əsas əlamətlər - ağız və dodaqların quruluğu, səbəbsiz arıqlama, yanğı (susuzluq) hissi, çox su içmək, tez-tez sidiyə getmək, iştahanın artması və sairədir. Şəkərli diabet zamanı qəbul olunan dərmanlar bədəndə piylənmənin azalması ilə yanaşı, qaraciyərin piylənməsinin də qarşısını alır. Tibbin inkişafı nəticəsində xəstələrin orta ömür müddəti əvvəlki illərə nisbətən xeyli uzanıb. Əgər əvvəllər bu xəstəliyə tutulandan sonra insanların orta hesabla beş-yeddi il yaşayırdılarsa, hazırda tibbin irəliləməsi ilə əlaqəli olaraq belə insanların orta xəstəlik müddəti 30-50 ildir.
Ölkəmizdə diabet xəstələrinin əksəriyyəti dövlət təminatındadır. Əvvəlki dövrdən fərqli olaraq, artıq xəstələrə heyvan mənşəli insulin yox, yeni analoji preparat vurulur. Çünki əvvəllər istifadə olunan insulinin tərkibindəki amin turşu ağır fəsadlarla nəticələnirdi. Hazırda dünyada 250 milyon insan şəkərli diabetdən əziyyət çəkir".